*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 sentyabr 2019-cu il № 75 (2392) Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

## Böyük Qələbəyə az qalıb, Vətən!



*Müharibə başlayandan bəri torpaqlarımıza düşən səngərlərdə qışda soyuğu-sazağı, yayda istini-bürkünü mən də hiss etməmişəm. Bu, səngərlərin yerinə yetirdiyi funksiyanın, səngərdəki əsgərlərin Hərbi anda sədaqətinin, Hərbi andın da rişələndiyi məfkurənin qüdrətidi. Bu qüdrətə görə Vətən səngərdən sərhəd bütövlüyüylə görünür.*

Dan yerinin sökülməsi aydınlıqların başlanğıcıdı. Müharibə başlayalı açılan səhəri bir niyyətlə, bir arzuyla, bir muradla bu başlanğıcdan salamlayırıq. Həmişə kirpiklərimizə yük olan alatoranda bizə elə gəlib ki, zaman ləng ötüşür - gecənin köynəyi gec sökülür. İndi də elədi. Özümə də bəlli olmayan bir niyyətlə şər qarışandan bəri könlüm məni səngərlərə çəkməkdədi...

Çəkingənliklə əsən meh payız səhərini gücü çatdığı qədər sərinləşdirməkdədi.

Diqqətimi göy üzündə vurnuxan bulud topası çəkir; dağlara sarı meyillənən bulud topası ürəyimi də arxasıyca çəkib aparmaqdadı. Əzəmət, vüqar, qürur ifadələri dağ kəlməsiylə qoşa işlədiləndə düşüncələri coşdurur, duyğuları kükrədir. Dağ əzəmətli, dağ vüqarlı, dağ qürurlu söz birləşmələri kimə ünvanlanırsa, onu kamil vətəndaş bilirik. Bu payız səhəri dağ vüqarlıları, dağ qürurluları görməyə, onlarla səmimiliklə kəlmələşməyə tələsirəm. Bu gediş, bu görüş mənə könül xoşluğu yaşadacaq. Yaşayacağım könül xoşluğunun yozumu ürəyimi telləndirəcək, əsgərlərlə birlikdə "Böyük Qələbəyə az qalıb, Vətən!", - deyəcəyik...

Səngərdə, əsgərlərin əhatəsində bu ünsiyyət sədaqətə görədi, bu sədaqət məhəbbətə görədi, bu məhəbbət Vətənə görədi. Səngərdə Azərbaycan əsgərinin istəyini - hərbi xidmət amalının nə olduğunu yenə eşidirəm. Bu istəyi inam bilirəm. Əsgərlərə "Mənim inamımın əzəli istinadgahı sizin inamınızdı. Bu inam Lələtəpə, Bayraqtəpə, Günnüt inamıdı. Bu inam Ali Baş Komandanın sizin döyüş və mənəvi-psixoloji hazırlığınıza inamından rişələnən inamdı", - deyirəm.

- Yayda istinin-bürkünün, payızda sazağın, qışda soyuğun, şaxtanın hiss edilməməsi səngərin yerinə yetirdiyi amalın qüdrətidi. Müharibə səbəbindən torpağın səngərləşən hissəsi çox həssas olduğu üçün Vətən buradan sərhəd bütövlüyüylə görünür, Azərbaycan əsgəri. Siz Ali Baş Komandanın döyüş əmriylə yaxın vaxtlarda bu hissəni dövlət sərhədinə köçürəcəksiniz, - deyirəm, yəni, ictimaiyyət sizə inanır, güvənir ki, siz bunu edəcəksiniz.

(Ardı 3-cü səhifədə)



Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilib

2-ci səhifədə



Döyüş hazırlığımızı daim artırırıq

4-cü səhifədə



Şagirdlər təlim atışlarında

4-cü səhifədə



Ön xətdə mədəni-kütləvi tədbir

5-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilib

*Sentyabrın 23-də Naxçıvan şəhərində Cəmşid Naxçıvanski Muzeyi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.*



Ali Məclisin sədri Azərbaycanın görkəmli hərb xadimi, Azərbaycan ilk milli atıcı diviziyasının komandiri olmuş general Cəmşid Naxçıvanskinin adını daşıyan muzeyin yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib, muzeyin qurulmasında əməyi olanlara təşəkkürünü bildirərək deyib: “Xalqımız qəhrəmanlığı və şücaəti ilə seçilən görkəmli sərkərdələri ilə tanınır. Böyük hərb sənətinə malik olan Azərbaycanda bu sənəti inkişaf və davam etdirən Naxçıvanskilər nəslinin nümayəndələri olan generalların mühüm xidmətləri vardır. Onlar şərəfli döyüş yolu keçmiş, gələcək nəsillər üçün nümunəvi vətənpərvərlik irsi qoyub getmişlər. Cəmşid Naxçıvanski də bu nəslin yetirdiyi altı generaldan biri olmuşdur.”

Ali Məclisin sədri deyib: “Hər bir vətəndaşda vətənpərvərlik hissinin formalaşdırılması milli mənliyin inkişaf etdirilməsindən başlamalıdır. Özünü ölkəsinin əsl vətəndaşı hesab edən şəxs fəaliyyətini məhz xalqa və Vətənə layiqli xidmət istiqamətində qurmalıdır. Ümummilli lider Heydər Əliyev deyirdi: "Milli mənliyi olan şəxs milli həyatın heç bir hadisəsinə laqeyd qala bilməz. Vətən, torpaq məhəbbəti, millətin və xalqın qayğıları onun şəxsi istək və arzularını üstələyir, onu xalq üçün müəyyən fəaliyyət göstərməyə sövq edir". Şərəfli döyüş yolu keçmiş general Cəmşid Naxçıvanski Vətən məhəbbətini şəxsi maraqlarından üstün tutan, yüksək ali keyfiyyətlərə malik, zəngin mənəviyyatlı sərkərdə kimi qısa ömrünə keşməkeşli hərb tarixini sığdırmağı bacarmış, sıravi əsgərdən general rütbəsinədək yüksəlmişdir.”

Qeyd olunub ki, həyatının məqsədini Vətənə xidmətdə görən Cəmşid Naxçıvanski bir-birinə zidd olan üç quruluşda yaşamasına baxmayaraq, şərəfli zabit adına ləkə gətirməmiş, təmsil etdiyi nəslin və xalqın ləyaqətini qorumuşdur. O, bu yolda bütün çətinliklərə sinə gərmiş, peşəkar sərkərdə bacarığı və sədaqəti göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin müdafiəsində iştirak etməsi, 1920-ci ilin əvvəllərində Dağlıq Qarabağda azərbaycanlı əhaliyə amansız divan tutan erməni quldur dəstələrini komandanlıq etdiyi alay tərəfindən darmadağın edilməsi və qısa müddətdə orada əmin-amanlıq yaratması xalqının müstəqilliyini sevən sərkərdə kimi Cəmşid Naxçıvanskinin şöhrətini daha da artırmışdır. Azərbaycan hərb tarixində Cəmşid Naxçıvanski ilk milli atıcı diviziyasını yaratmış və ona komandanlıq etmişdir.

Ali Məclisin sədri deyib: “Sovet hakimiyyəti illərində Azərbaycan xalqının repressiya qurbanı olmuş görkəmli nümayəndələrindən biri Cəmşid Naxçıvanski əsl bəraətini ümummilli lider Heydər Əliyevin ötən əsrin 70-ci illərində Azərbaycanda həyata keçirdiyi tarixi yaddaşa və milli soykökə qayıdış siyasəti nəticəsində almışdır. Cəmşid Naxçıvanskinin adının və xatirəsinin əbədiləşdirilməsi ilə bağlı 23 iyun 1971-ci il və 8 avqust 1981-ci il tarixlərində imzalanan qərarlar görkəmli sərkərdənin irsinə ulu öndər Heydər Əliyevin böyük ehtiramıdır. Bu tarixi qərarlarla Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbi, Naxçıvan şəhərində isə Cəmşid Naxçıvanski Muzeyi yaradılmış, bir məktəbə və küçəyə onun adı verilmişdir. 1982-ci ildən fəaliyyətə başlayan Cəmşid Naxçıvanski Muzeyi ötən müddət ərzində böyük sərkərdənin keçdiyi həyat yoluna aid tarixi sənədlərin, eksponatların qorunub saxlanılması, gələcək nəsillərə çatdırılması və təbliğində mühüm rol oynamışdır.”

“Bu gün açılışına toplaşdığımız bu tarixi bina 3 əsrin tarixi yaddaşını qorumaqla, xalqın azadlıq və müstəqillik epopeyasına 1918-ci ildən 1920-ci ilədək fəaliyyət göstərmiş Araz-Türk Respublikası hökumətinin fəaliyyətini də yazmışdır. Bu muzeydə Cəmşid Naxçıvanski ilə bərabər, xalqımızın 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərindəki milli azadlıq və istiqlaliyyət uğrundakı mübarizəsində qəhrəmanlıq göstərən tarixi şəxsiyyətlərinin fəaliyyəti də əks olunur", - deyən Ali Məclisin sədri bildirib ki, Naxçıvan tarixinin, tanınmış hərb xadimlərinin irsinin qorunub saxlandığı Cəmşid Naxçıvanski Muzeyi xalqın tarixi yaddaş salnaməsi, eyni zamanda vətənpərvərlik təliminin, dövlətçilik ənənələrinin daşıyıcısı olan mədəniyyət mərkəzidir. Bu muzey həm də gələcək nəsillərin tərbiyəsi və vətənpərvərlik ruhunda yetişməsində mühüm əhəmiyyəti ilə seçilir. “Buna görə də Cəmşid Naxçıvanski Muzeyi öz fəaliyyətini xalqımız qarşısında mühüm xidmətləri olan tanınmış şəxsiyyətlərin keçdiyi həyat yolu və Araz-Türk Respublikasının timsalında müstəqillik və dövlət quruculuğu tariximizi gənc nəslə təbliğ etməli, onların Vətənə məhəbbət ruhunda tərbiyəsinə öz töhfəsini verməlidir. Xalqımızın şanlı qəhrəmanlıq tarixi, ölkəmizin müstəqilliyi və suverenliyi yolunda misilsiz xidmət göstərən qəhrəmanları həmişə yaşayacaqlar!”

Cəmşid Naxçıvanski Muzeyinin direktoru Abasət Nuriyev çıxış edərək deyib ki, muxtar respublikamızda geniş vüsət almış abadlıq-quruculuq işləri mədəniyyət sahəsini də əhatə edib. Qədim diyarımızda tarixi abidələr bərpa edilir, yeni muzeylər yaradılır, muzey fondları zənginləşdirilir. XX əsrin əvvəllərində Araz-Türk Respublikasının Naxçıvan şəhərindəki qərargahı, hazırda hərb tariximizdə xüsusi yeri olan Azərbaycanın görkəmli sərkərdəsi Cəmşid Naxçıvanski Muzeyinin binası XIX əsr tarix-mədəniyyət abidəsidir. Ötən əsrin 70-ci illərində əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan siyasət - tarixi-mədəni irsimizin qorunması, tarixi şəxsiyyətlərimizin adının əbədiləşdirilməsi, onların cəmiyyətə tanıdılması siyasəti bu gün uğurla davam etdirilir. Cəmşid Naxçıvanski Muzeyi binasının yenidən qurulması da Naxçıvanın tarixinə, mədəniyyətinə, görkəmli tarixi şəxsiyyətlərinə diqqət və qayğının ifadəsidir. Abasət Nuriyev göstərilən diqqətə görə muzeyin kollektivi və Naxçıvanskilərin tədqiqatçıları adından Ali Məclisin sədrinə minnətdarlığını bildirib.

Sonra muzeyə baxış olub. Qeyd olunub ki, muzey 6 ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. Hazırda muzeyin fondunda 5400-ə yaxın eksponat vardır. Həmin eksponatlardan 500-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir. Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi, onun uşaqlıq və gənclik, həmçinin hərbi təhsil illəri, Birinci Dünya müharibəsində iştirakı, Azərbaycan Xalq Cümhuriyyətinin təşkil etdiyi Milli Ordu quruculuğunda, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonrakı dövrdə və Moskvada Frunze adına Hərbi Akademiyada hərbi-pedaqoji fəaliyyəti, təltifləri və repressiyaya məruz qalması, eləcə də generalın ailəsi və yaxın qohumları ilə bağlı sənədlər, kitablar, fotoşəkillər və digər eksponatlar müxtəlif bölmələrdə mühafizə edilir. Araz-Türk Respublikasının fəaliyyətindən bəhs edən bölmədə isə tədqiqat materialları və tarixi sənədlər nümayiş etdirilir.

Ali Məclisin sədri Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi tərəfindən Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətinin, eləcə də Araz-Türk Respublikasının öyrənilməsi və tədqiq olunması, gənclərin, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının muzeyə ekskursiyalarının təşkili barədə tapşırıqlar verib.

# “Qafqaz Qartalı-2019” təlimində atış çalışmaları keçirilib



Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin əldə etdikləri razılığa əsasən, Bakıda keçirilən "Qafqaz Qartalı-2019" birgə təlimi çərçivəsində xüsusi təyinatlı qüvvələr avtomat, tapança, snayper tüfəngi və birdəfəlik qumbaraatanlardan xüsusi atış çalışmaları yerinə yetiriblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, qarışıq atəş qrupları tərkibində icra edilən atışlar zamanı xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirərək qarşıya qoyulmuş tapşırıqları uğurla icra ediblər.

# “Saber Junction-19” təlimlərində növbəti mərhələ icra olunub



Almaniyanın "Hohenfels" təlim mərkəzində davam edən "Saber Junction-19" çoxmillətli briqada taktiki təlimində iştirak edən Azərbaycan Ordusunun hərbi qulluqçuları növbəti mərhələdə tapşırıqları icra ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbçilərimiz NATO-nun üzv və tərəfdaş ölkələrinin nümayəndələri ilə birgə təlim çərçivəsində keçirilən əməliyyatlar, bölmələrin qarşılıqlı fəaliyyəti və digər tapşırıqları yerinə yetirirlər.

# Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub



Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında hərbi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 13-cü iclası keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edən Azərbaycan Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini general-leytenant Fuad Məmmədov iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə danışaraq bu istiqamətdə münasibətlərin inkişaf etdiyini vurğulayıb.

Tərəflər hərbi-texniki əməkdaşlığın cari vəziyyətini nəzərdən keçirib və 2020-ci il üçün əsas fəaliyyət istiqamətlərini müəyyən ediblər.

Görüşün sonunda "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hərbi-texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 13-cü iclasının Protokolu" imzalanıb.

# Bakıda NATO ekspertlərinin iştirakı ilə treninq keçirilib



Silahlı Qüvvələrin Hərbi Akademiyasında Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı (DEEP) çərçivəsində NATO ekspertlərinin iştirakı ilə pedaqoji təlimatçıların treninqi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, treninqin məqsədi aparıcı pedaqoji təlimatçıların hazırlanaraq, xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin pedaqoji potensialının Müdafiə Nazirliyinin kadr resursları hesabına təkmilləşdirilməsinə yardım göstərməkdən ibarətdir.

# Böyük Qələbəyə az qalıb, Vətən!

(Əvvəli 1-ci səhifədə)

Əsgərlərin baxışlarında şükranlıq sezilir. Zabit Aqil Hüseynov 2016-cı ilin Aprel döyüşlərini - Lələtəpə, Bayraqtəpə qələbələrini, 2018-ci ilin may döyüşlərini - Günnüt zəfərini xatırladaraq deyir ki, bu əsgərlər həmin zəfərləri qazananların davamçısı olacaqlar, ruhumuzun fəsli deyəcəyimiz fəsildə. Ruhumuzun ayı adlandıracağımız ayda Böyük Qələbəylə bütün səngərlər birdəfəlik dövlət sərhədlərimizə köçürüləcək. Zabitin bu inamı bayaqkı inamın eynidi.

2016-cı ilin Aprel döyüşləri, qazanılan qələbə səngərlərdə də, səngərlərdən uzaqlarda da həmişə məhz bu inamın təntənəsi kimi, ruhumuzun qələbəsi kimi, Böyük Qələbənin başlanğıcı kimi xatırlanır. Səngərdə döyüşlər getdiyi vaxtlarda Birinci Qarabağ müharibəsi iştirakçılarının, tələbələrin, məktəblilərin, ümumən ictimaiyyətin döyüşlərdə iştirak etmə istəyini də yada salırıq. Söz düşəndə ictimaiyyəti təmsil edənlərin Azərbaycan əsgərinə xitabını xatırlayıram: "Qələbəyə görə çox sağ olun!", Azərbaycan əsgərinin ictimaiyyətə xitabən dediklərini eşidirəm: "Bu inama, etibara, ehtirama görə çox sağ olun!"...

Aqil Hüseynov zabit qüruruyla ötən ilin yayında Azadlıq meydanında Azərbaycan Ordusunun 100 illik yubileyinə həsr olunan paradı xatırladır, mən həmin paradda bir ağsaqqaldan eşitdiklərimi:

- Ermənilərə qarşı yerli müdafiə batalyonunun tərkibində mən də döyüşmüşəm. Ermənilər ilk vaxtlar çəkinə-çəkinə həmlə, hücum edirdi. Sonra bir az fəallaşsalar da, biz onlara ciddi müqavimət göstərirdik. "Ya zəlzələdən, ya vəlvələdən" - torpaqlarımızı sonacan qoruya bilmədik. Bizdən sonra Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan da işğal olundu. Bu ağrı təkcə qaçqınların deyil, hamımızın ağrısıdı. Paradda göstərilən texnikaları, qurğuları dost da gördü, düşmən də. Gördülər, istər-istəməz inandılar ki, belə döyüş texnikaları, silahı olan ordu, əlbəttə ki, torpaqlarını işğaldan azad etməyə qadirdir. Tanrıdan yurduma dönənəcən ömür istəyirəm. Əlim evimin daşına-divarına dəysin, həmin an son nəfəsim olsa da, bəsimdi..

Parad günü şuşalı ağsaqqaldan eşitdiklərim, "torpaqlarımızı sonacan qoruya bilmədik" etirafı əsgərləri duyğulandırır. Hər birinin baxışlarında bayaq səngərlərə yaxınlaşanda göy üzündə vurnuxan gördüyüm bulud topasının eynini görürəm. Əsgərlərin yumruqları düyünlənib. Heç birindən heç nə soruşmuram. Gizir İbrahim Məmmədov belə deyir:

- Bir əsgərimiz vardı. Şuşalıydı. Həmişə deyirdi ki, ata-anamın Şuşa həsrəti məndən 8 yaş böyükdü. Paradda sizin şuşalı ağsaqqaldan eşitdiklərinizi həmin əsgər atasından da, əmisindən də, dayısından da çox eşitmişdi. Onlar da yurd həsrəti çəkirmiş, onlar da deyirmiş ki, ordumuzun torpaqlarımızı işğaldan azad edəcəyinə inanırıq. Bu inam indi bizim döyüş əzmimizdi, qələbə ruhumuzdu: Biz mütləq qalib əsgər olacağıq!

Şuşalı olub Şuşanı görməyən əsgərin qəhərini təsəvvür edirəm. Bu qəhər təkcə həmin əsgərin atasının, əmisinin, dayısının illərlə yaşadığı ağrı-acılara, can üzən, ruh sarsıdan həsrətə görə deyil, bu qəhər azərbaycançılıq heysiyyətinin qəhəridi. Bu qəhər ürəyi yurduna sarı boylananların qəhəridi, müqəddəsliyin yaratdığı qəhərdi. Ata-anası Şuşadan olan əsgərin ürəyini üzən qəhəri əsgərlərin hamısı öz qəhəri bilir, - düşünürəm...

Bayaqdan bəri göy üzündə vurnuxan bulud topası seyrəlməkdədi. Bunu söhbətimizin mahiyyətinə, mahiyyətin sonluğuna rəmz bilirəm. Bu ovqatı, eynilə 2016-cı ilin martın sonlarında Cocuq Mərcanlıdan Lələtəpəyə aparan yolda da yaşamışdım. On gün sonra bu ovqatın davamı Lələtəpədə də boy göstərmişdi...



Zabit Nəsimi Həsənli İbrahim Məmmədovun son kəlmələrinə söykək kimi deyir ki, məmləkətin əsgərlərə inamı yaxın vaxtlarda gerçəkləşəcək. "Son illərdə həyata keçirilən irimiqyaslı islahatlar, genişmiqyaslı təlimlər, beynəlxalq miqyaslı təlimlər, ordunun ən müasir hərbi texnikalarla, qurğularla təchizi şəxsi heyətin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının səviyyəsini yüksəldib. Ordumuz güclüdür, nəinki Cənubi Qafqazda, həm də dünyada ən güclü ordular sırasındadır."

Əsgər tərxis olunur. Yeniyetmələrə, yaxınlarına hərbi xidmətdən, aylarla nəfəs-nəfəsə döyüş növbətçiliyi apardığı əsgər yoldaşlarından danışır, hər dəfə sonu Böyük Qələbəylə tamamlanan səngərli söhbətləri xatırlayır. Düşüncələri səngərdən iraq düşməyənlər hər günün təəssüratlarını ömrünə hopdurduğu hərbi xidmətə qayıtmağa qərar verirlər.

Zamanında yaxşı əsgər olan İbrahim Məmmədov gizirdi. Bir az əvvəl sözarası, vaxtaşırı hal-əhval tutduğu əsgərlik dostlarından söz açmışdı, "Hərbi xidmət mənə Vətəni daha dərindən, daha dönməzliklə sevməyi öyrətdi, məsuliyyətlilik, dürüstlük aşıladı, bir də ömrümə yazılan dostlar verdi", - demişdi. Söhbətimizi bu kəlmələrin araçılığıyla davam etdiririk.

İbrahimə deyirəm ki, şuşalı əsgərin dediklərini xatırlatdın, hamımız eşitdik, söhbət sənin özünü də duyğulandırdı.

- Xidmətdən sonrakı söhbətlərin başlıca mövzusu döyüş əzmidi, qələbə ruhudu. Səngər söhbətləri torpaqların işğaldan azad edilməsiylə başlayır, qələbəyə inamla tamamlanır. Səmimiyyətimə inanın, məni yenidən hərbi xidmətə gətirən bu söhbətlər oldu, - İbrahim qətiyyətlə belə deyir...

Son vaxtlarda müxtəlif qoşun növlərinin, qism, birlik və birləşmələrin iştirakı ilə keçirilən genişmiqyaslı təlimlər göstərdi ki, ordumuzda olan texnikalar, hava hücumu vasitələri, helikopterlər, təyyarələr qələbələrlə nəticələnəcək döyüşlər aparmağa qadirdir. Əsgərlərin əhatəsində belə bir qürur yaşamaq nə qədər xoşdur!

Zabit Aqil Hüseynov deyir ki, müəyyən hərbi xidmət keçmiş zabit Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyicisi kimi təhsil alır. "Öyrəndikləri hərbi hissədə digər zabitlər üçün, müəyyən mənada tədris materialı olur. Nəticə etibarilə bu biliklərin zəruri hissəsi əsgərlərə də çatdırılır.

Zabitin kifayət qədər yığcam şərh-izahını təxminlərimin təsdiqi bilirəm və 100 illiyin paradında nümayiş etdirilən ən müasir texnikaları, qurğuları xatırlayıram, xatırladıram. O texnikaların, qurğuların istismarını mükəmməl öyrənənlər Ali Baş Komandanın əmriylə başlayacaq döyüşdə həm yüksək döyüş, həm də mənəvi-psixoloji hazırlığa malik olan əsgərlərimiz gözlədiyimiz Böyük Qələbəni qazanacaqlar...

...Payızın ilk ayı sərin keçir, soyuq biçimli sərinlikdi. Arada hava bir qədər qaralır da. Yağışdan ehtiyatlanırıq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Vüqar Əliyev səmimiyyətlə deyir ki, yağmayacaq, təbiətin şıltaqlığıdı...

Səngərdə soyuq hiss etmirik. Bu, təkcə Vətənlə, qələbəylə bağlı söhbətlərə görə deyil, bu, səngərin yerinə yetirdiyi amalın qüdrətidi. O qüdrət Vətəndən gəlir, Hərbi andda sədaqətdən, Hərbi andın rişələndiyi məfkurədən gəlir, Azərbaycan əsgərinin qüdrətindən gəlir. Bu qüdrətə görədir ki, Vətən səngərdən sərhəd bütövlüyüylə görünür!..

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***27 sentyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber, Paravakar kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Məzəm, Qızılhacılı kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

### "Azərbaycan Ordusunun bölmələrinə məxsus PUA-lar tam tərkibdə sıradadır və itki yoxdur"

Ermənistan kütləvi informasiya vasitələrində guya Azərbaycana məxsus pilotsuz uçuş aparatının (PUA) vurulması barədə növbəti dezinformasiya xarakterli məlumat yayılıb.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, bu xəbər həqiqətə uyğun deyil, Azərbaycan Ordusunun bölmələrinə məxsus PUA-lar tam tərkibdə sıradadır və itki yoxdur.

AZƏRBAYCAN ORDUSU

*Döyüş hazırlığı*

# Döyüş hazırlığımızı daim artırırıq

*Azərbaycan Ordusunda döyüş hazırlığının yüksəldilməsi şəxsi heyətin qarşısında duran başlıca vəzifədir. Ön xətdə yerləşən hərbi bölmələrimiz torpaqlarımızı düşməndən qorumaq üçün mütəmadi döyüş hazırlığı ilə məşğul olurlar. "N" hərbi hissəsinin ərazisində olarkən keçirilən dərs prosesi diqqətimizi cəlb etdi. Dərs prosesini bir az müşayiət etdikdən sonra şəxsi heyətə yaxınlaşırıq.*



- Hazırda bölmənin şəxsi heyəti atıcı silahların taktiki-texniki xüsusiyyətlərini, hissə və mexanizmlərini, "döyüşə" komandasının yerinə yetirilməsi qaydasını öyrənir, - deyə leytenant Elgün Əzizov söhbətə başladı. - Başlıca vəzifəmiz döyüş tapşırığının yerinə yetirilməsidir. Bu səbəbdən də mütəmadi olaraq şəxsi heyət komandanlıq tərəfindən müəyyən edilmiş döyüş hazırlığı planına əsasən, nəzərdə tutulan tədbirləri ardıcıl yerinə yetirir. Düşmən əsgərləri səngərdə ayıqsayıq dayanan, döyüş hazırlığını gündən-günə daha da artıran Azərbaycan Ordusunun şəxsi heyətinin yüksək döyüş ruhundan qorxuya düşür. Atəşkəs rejimini hər dəfə pozanda ordumuz onlara layiqli cavab verir. Bu da yüksək səviyyəli döyüş hazırlığının nəticəsidir. Hər bir əsgər, eləcə də kiçik komandir heyəti bilir ki, döyüşə hazır olmayan bölmə məğlubiyyətdən yaxa qurtara bilməz. Bunu dərk edən şəxsi heyət həm Vətənin keşiyində durmaq, həm də döyüşə hazırolma vəzifəsinin öhdəsindən gəlmək üçün öz bacarıqlarını daim artırırlar.

Əsgərlərə dərsi izah edən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elməddin Muradovu izləyirik. O, tabeliyindəki əsgərlərə avtomatın döyüş imkanlarını izah edir və silahdan atəş açmaq qaydalarını başa salır. "Avtomat əsgərin fərdi silahıdır. Ondan istifadə etmək üçün gərək əvvəlcə silahın bütün döyüş qabiliyyətini, hissə və mexanizmlərini, funksiyalarını biləsən ki, baş verəcək hər hansı ləngiməni qarşısını vaxtında almağı bacarasan. Biz dərs vaxtlarında və silah təmizləmə saatlarında da tabeliyimizdəki heyətə avtomatın hissələrini bir-bir izah edirik. Bölmənin bütün şəxsi heyəti artıq ona təhkim olunmuş silahı rahatlıqla istifadə edə bilir. Şəxsi heyətimiz istənilən an düşmənə öz silahlarını tuşlamağa və torpaqlarımızı azad etməyə hazırdır."

Leytenant Elgün Əzizov bölmələrdə əsgərlərin mənəvi-psixoloji hazırlığının artırıldığının da diqqət mərkəzində olduğunu bildirdi. "Psixoloji cəhətdən döyüşə hazır olan əsgər müharibə meydanında ən çətin vəziyyətdə belə düzgün qərar vermək iqtidarındadır. Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə cavabdeh zabit kimi ictimai-siyasi hazırlıq dərslərinin vaxtında keçirilməsinə, mövzuların dolğun və səlis olaraq əsgərlərə çatdırılmasına xüsusi diqqət edirəm. Vətənini sevən əsgər ən müasir silahdan belə güclüdür."

Təsdiqlənmiş tədbirlər planına uyğun olaraq təkcə gündüz deyil, gecə dərsləri də keçirilir. Həmçinin gecə atışlara hazırlıq vərdişlərinin artırılması da şəxsi heyətə aşılanır. Zabit və əsgərlər döyüş şəraitinə uyğun olaraq öz vəzifələrinin öhdəsindən layiqincə gəlməyə çalışırlar.

- Bu gün döyüş hazırlığımızı artırmaq məqsədilə mütəmadi olaraq bizə məşğələlər keçirilir, - deyə əsgər Əmin Mustafayev bildirdi. - Komandirlərimizin rəhbərliyi altında ixtisas, atəş, mühəndis, taktiki biliklərimizi təkmilləşdiririk. Gördüyünüz kimi, hazırda bizlərə təhkim olunmuş silahlarımızın döyüş imkanları öyrədilir. Hər kəs öz silahını tanımalı, ondan bacarıqla istifadə etməyi bacarmalıdır.

Şəxsi heyətin öz vəzifəsinə dərindən bələd olması, çevikliyi, verilən tapşırığı dəqiq icra etməsi bölmənin istənilən vəziyyətə hazır olduğunu göstərir.

Əsgər Turqay Kazımzadə gənc əsgər hazırlığı dövründə öyrəndiklərini burada təkmilləşdirdiyini qeyd etdi. "Xidmətə yeni gəldiyimizdə silahları tanımırdıq. Düzdür, internet saytlarında ordumuzun müasir silahlarını axtarıb baxırdım. Lakin heç vaxt əlimə silah götürməmişdim. İlk dəfə silahı götürəndə həyəcanlandım. Zaman keçdikcə isə artıq ona öyrəşdim və dərk etdim ki, silah əsgərin ən yaxın dostudur. Ona görə də mənə təhkim edilmiş silahın bütün taktiki-texniki xüsusiyyətlərini oxudum, onunla rəftar etmə qaydalarını öyrəndim. Gənc əsgər hazırlığı ərəfəsində öyrəndiklərimizi buraya gəldikdən sonra daha da təkmilləşdirdik. Bu gün Ali Baş Komandanın rəhbərliyi altında öz silahdaşlarımla birgə düşmən üzərinə şığımağa və torpaqlarımızı azad etməyə tam hazırıq."

- Məşğələlərin mövzusuna uyğun olaraq istər fərdi, istərsə də manqa şəklində verilən tapşırığın öhdəsindən gələ bilərik, - deyə əsgər Ramin İsrafilov söhbətimizə qoşuldu. - Bölməmizin bacarıqlı zabitlərinin, həmçinin yuxarı komandanlığın daim olaraq dərslərimizə nəzarət etməsi bizi daha səylə çalışmağa sövq edir. Komandirlərimiz bizə silahın ən incə detalı haqqında məlumat verir, dərsin sonunda isə sual-cavab edirlər. Ona görə də hamı dərsi diqqətlə dinləyib mənimsəməyə çalışır. Çünki bunlar hamısı döyüş meydanında düşməni məhv etməyimiz üçündür. Bu gün biz əsgərlərin üzərinə düşən vəzifə keçirilən dərsləri diqqətlə dinləmək və hər an gələcək komandaya hazır olmaqdır.

Əsgərlər Elton Məmmədov, Emin Fərəcov, İlkin Cəbrayılov, Səbuhi Alıyev, Turxan Mustafayev də dərslərdə daim fəal iştirak etdiklərini və yuxarı komandanlıq tərəfindən veriləcək istənilən tapşırığın öhdəsindən layiqincə gələcəklərini bildirdilər.

Hər bir əsgər işğalda olan torpaqlarımızın düşməndən tezliklə azad edilməsinin fərqindədir. Bu səbəbdən də Azərbaycan əsgəri döyüş meydanında qalib olmağa hazırdır. Ordumuzda xidmət edən savadlı, bacarıqlı, peşəkar komandir heyətinin köməyi sayəsində şəxsi heyət gündən-günə döyüş hazırlığını artıraraq qalibiyyətə doğru addımlayır.

**Kapitan**
**Məhəmməd NƏSİRLİ,**
**foto**
**C.CƏFƏROVUNDUR**

# Şagirdlər təlim atışlarında

*Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində praktiki məşğələyə cəlb olunan Kəngərli rayon məktəbliləri başlanğıc təlim atış çalışması üzrə yarışıblar.*



Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsinin təlim şəhərciyində təşkil olunan tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Kəngərli rayon Şöbəsinin, rayonun Təhsil Şöbəsinin, Gənclər və İdman İdarəsinin nümayəndələri çıxış edərək praktiki məşğələnin əhəmiyyətindən danışıblar. Hərbi hissənin zabitləri məşğələ çərçivəsində keçirilən başlanğıc təlim atış çalışması üzrə yarışın mahiyyəti və təhlükəsizlik qaydalarını şagirdlərə izah ediblər.

Məşğələ zamanı müxtəlif təlim yerlərində atıcı silahların taktiki-texniki xüsusiyyətləri, əl qumbaralarının atışı və silahla davranış qaydaları şagirdlərə öyrədilib.

Kəngərli rayon məktəbliləri başlanğıc təlim atış çalışması üzrə yarışda avtomatdan praktiki atışlar yerinə yetiriblər. 7 məktəbdən 35 şagirdin böyük həvəslə iştirak etdiyi yarışda məktəblilər hədəfləri dəqiqliklə nişan almağa çalışıb, birinci olmaq üçün səy göstəriblər.



Ümumi nəticələrə əsasən, komanda hesabında 3-cü yerə Xok kənd tam orta məktəbinin, 2-ci yerə Qıvraq qəsəbə tam orta məktəbinin, 1-ci yerə isə Böyükdüz kənd tam orta məktəbinin komandası layiq görülüblər. Fərdi hesabda 1-ci yerin qalibi qızlar arasında Böyükdüz kənd tam orta məktəbinin şagirdi Aysel Məmmədova, oğlanlar arasında Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin şagirdi Əli Əsədov olub. Qaliblərə diplom və kuboklar təqdim edilib.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

*İmadəddin Nəsimi - 650*

# "Məndə sığar iki cahan" bədii qiraət müsabiqəsi keçirildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə hərbi qulluqçuların və onların ailə üzvlərinin istedadlarını nümayiş etdirmək və hərbi kollektivdə milli-mənəvi dəyərlərə bağlılığın formalaşdırılması məqsədi ilə "Məndə sığar iki cahan" bədii qiraət müsabiqəsi keçirildi.*



Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin şəxsi heyəti, ictimaiyyət nümayəndələri, hərbi qulluqçular və onların ailə üzvləri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı Gülxar Məmmədova tədbiri açaraq bildirdi ki, bədii söz sənətinin ən dəyərli incilərini ortaya qoyan, əsərlərində ümumbəşəri fikirləri yüksək poetik şəkildə ifadə edən mütəfəkkir şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatının nadir simalarından biridir. "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında sərəncamı ölkəmizin mədəni həyatında çox əlamətdar və təqdirəlayiq hadisədir. Bu sərəncam ölkə Prezidentinin, Azərbaycan dövlətinin bədii sözə və ədəbiyyatımıza, incəsənət və mədəniyyətimizə verdiyi böyük dəyər və qayğının daha bir bariz nümunəsidir".

İmadəddin Nəsiminin həyat və yaradıcılığı haqqında geniş məlumat verən natiq qeyd etdi ki, xalqımızın ümummilli lideri Heydər Əliyev elm və mədəniyyətə, ədəbiyyat və incəsənətə, ələlxüsus da xalqımızın mənəvi sərvəti olan ana dilimizə böyük diqqət və qayğı ilə yanaşaraq, bu yöndə bir sıra məqsədyönlü tədbirləri həyata keçirmişdir. "Ulu Öndərin təşəbbüsü ilə böyük mütəfəkkir şair İmadəddin Nəsiminin 600 illik yubileyi UNESCO-nun tədbirlər planına daxil edildi və ölkəmizdə böyük



təntənə ilə qeyd olundu. 1979-cu ildə Bakının mərkəzində İmadəddin Nəsiminin möhtəşəm heykəli ucaldıldı, şair haqqında məşhur bədii film çəkildi. Böyük söz ustadının əsərləri həm doğma ana dilində, bəziləri bir sıra xarici dillərdə nəfis şəkildə nəşr olundu".

Münsiflər heyətinin üzvləri Əməkdar jurnalist Zakir Abbasov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi Əlizaman Mirzəyev, Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı, Aida Mirzəyeva və Gülxar Məmmədova idilər.

Müsabiqə iştirakçıları böyük Azərbaycan şairinin xalqımıza miras qoyduğu zəngin irsindən müxtəlif qəzəllər səsləndirdilər.

Müsabiqənin final mərhələsində əsgər Cavid Quliyev I yerə, baş gizir Elçin Astanov II yerə, çavuş Camal Bağırlı və altıncı sinif şagirdi Roza Axundova III yerə layiq görüldülər.

Qaliblərə fəxri fərman və qiymətli hədiyyələr təqdim edildi.

Sonda xatirə şəkli çəkdirildi.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

*Asudə vaxt*

# Ön xətdə mədəni-kütləvi tədbir



*Müdafiə nazirinin tapşırığına əsasən hərbi qulluqçuların hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, asudə vaxtının daha səmərəli təşkili məqsədilə səyyar-təşviqat dəstəsi tərəfindən cəbhəboyu zonada yerləşən hərbi hissədə daha bir mədəni-kütləvi tədbir keçirildi.*

Bu günlərdə cəbhə xəttində yerləşən "N" hərbi hissəsində H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə mədəni-kütləvi tədbir keçirildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və asudə vaxtının səmərəli təşkili məqsədilə keçirilən mədəni-kütləvi tədbirdə "N" hərbi hissəsinin əsgər və zabit heyəti, H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi, Bakı şəhər Mədəniyyət Baş İdarəsinin dəvət etdiyi respublikamızın tanınmış incəsənət nümayəndələri iştirak etdilər.

Tədbir xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himninin səsləndirilməsi ilə başladı.

Bir ildir ki, Müdafiə Nazirliyi və Bakı şəhər Mədəniyyət Baş İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən belə tədbirlərin ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında, asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynadığını deyən H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov bildirdi ki, ordu mahnıları, hərbi marşlar vətənpərvərliyin, qəhrəmanlığın tərənnüm olunmasında olduqca vacib amildir. "Azərbaycan Ordusunda belə hərbi vətənpərvərlik yönümlü tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilib. Yaradıcı kollektivimiz, respublikamızın məşhur incəsənət nümayəndələri mütəmadi olaraq Azərbaycan Ordusunun şəxsi heyəti qarşısında maraqlı, rəngarəng proqramlarla çıxışlar edirlər. H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzi olaraq bizim ən böyük vəzifəmiz ordumuzun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının artırılmasını layiqincə təşkil etməkdir. Arzulayıram ki, mədəni-kütləvi tədbirlərimizi, konsert proqramlarımızı tezliklə işğaldan azad olunacaq torpaqlarımızda - Şuşamızda, Qarabağımızda keçirək. Əziz əsgərlər və zabitlər, sizə xoş və maraqlı istirahət arzulayırıq".







Mədəni-kütləvi tədbir rəngarəng rəqslərlə, vətənpərvərlik, döyüş ruhlu, qəhrəmanlığı tərənnüm edən hərbi marşlarla, orduya, Azərbaycan əsgərinə həsr olunan bədii sənət nümunələrinin səsləndirilməsi ilə davam etdi.

Respublikamızın tanınmış müğənniləri Aynur Dadaşova, Niyam Salami, Günay Əzimova və gizirlər Günay Qasımova, Vüsal Ağayev, Leyla Əliyevanın ifaları, qiraətçi Ayaz Məmmədovun səsləndirdiyi Xalq şairi Zəlimxan Yaqubun "Sən qalib gələcəksən!" şeiri, rəqqasə Fatimə Fətəliyevanın quruluş verdiyi "Cümhuriyyət suitası" və "Cəngi" rəqsləri şəxsi heyətdə yüksək ovqat yaratdı.

Sonda mədəni-kütkəvi tədbirin təşkilində fəal iştirakına görə bir qrup incəsənət nümayəndəsinə hərbi hissənin komandanlığı tərəfindən fəxri fərmanlar təqdim olundu.

**Lalə HÜSEYNOVA,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Hərbi qulluqçuların statusunun hüquqi təminatı.**

**2. Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları.**

**3. Hərbi qulluqçuların təklif, ərizə və şikayət vermə hüquqları.**

**4. Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası.**

**Mövzu:** Hərbi qulluqçuların statusu, onların və ailə üzvlərinin sosial müdafiəsi

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, hərbi xidmətkeçmə haqqında qanunvericilik aktlarından, Daxili Xidmət və İntizam nizamnamələrindən istifadə edərək dinləyicilərə hərbi qulluqçuların statusu, hərbi qulluqçulara və onların ailə üzvlərinə mövcud qanunvericiliklə şamil edilən hüquqlar haqqında ətraflı məlumat verməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almaqla mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

### *Hərbi qulluqçuların statusunun hüquqi təminatı*

Cəmiyyətin tərkib hissəsi olan ordu xidmətkeçmə şəraitinə və xüsusiyyətlərinə görə digər fəaliyyət sahələrindən fərqlənir. Buna görə də hərbi xidmətkeçmə qaydaları, eləcə də hərbi xidmət keçən vətəndaşların vəzifə və hüquqları xüsusi qanunvericilik aktları ilə tənzimlənir.

Azərbaycan Respublikasının əsas qanunu olan Konstitusiyanın 9-cu maddəsində göstərilir ki, "Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir". Konstitusiyanın 76-cı maddəsinə əsasən, "Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər".

Azərbaycan Ordusunun vəzifələri, hərbi xidmətin şəraiti və xarakteri "Azərbaycan Respublikasının Silahlı Qüvvələri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilib. Bu qanundan irəli gələn tələblərə əsasən, digər hərbi qanunvericilik aktları, o cümlədən hərbi xidmət keçən vətəndaşların hüquq və vəzifələrini müəyyən edən "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının 25 dekabr 1991-ci il tarixli Qanunu qəbul edilmişdir. Həmin qanuna görə, hərbi qulluqçunun statusu Azərbaycan Respublikasının Konstitusiyasında, Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarında müəyyən edilən hüquqlardan, vəzifələrdən, bunların həyata keçirilməsi üçün təminatlardan və məsuliyyətdən ibarətdir. Hərbi qulluqçular Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyənləşdirilən, hərbi xidmətin xüsusiyyətləri ilə bağlı əlavələrlə və məhdudiyyətlərlə Azərbaycan Respublikası vətəndaşlarının hüquq və azadlıqlarından istifadə edirlər.

"Hərbi qulluqçuların statusu haqqında" qanunda deyilir: "Heç kəsin ixtiyarı yoxdur ki, hərbi qulluqçuları və onların ailə üzvlərini Azərbaycan Respublikasının Konstitusiyasında və qanunlarında Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmuş hər hansı hüquq və azadlıqlardan məhrum etsin və ya onların hüquqlarını məhdudlaşdırsın, buna yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müvafiq surətdə yol verilir".

Dövlət orqanları, müəssisələri, idarələri, təşkilatları, vəzifəli şəxslər, hərbi idarəetmə orqanlarının komandirləri (rəisləri) öz səlahiyyətləri və vəzifələri daxilində hərbi qulluqçuların statuslarını təmin edirlər. Hərbi qulluqçuların hüquqlarının həyata keçirilməsi sahəsində vəzifələrini icra etməməkdə və ya lazımınca icra etməməkdə təqsiri olan şəxslər qanunvericiliyə müvafiq qaydada məsuliyyət daşıyırlar.

### *Hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları*

"Hərbi qulluqçuların statusu haqqında" qanun ilə hərbi qulluqçuların və onların ailə üzvlərinin hüquqları müəyyənləşdirilib. Qanunun 6-cı maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı olan hərbi qulluqçular Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasının seçkili dövlət orqanlarına seçmək və seçilmək, ümumxalq müzakirələrində və səsvermələrində (referendumlarda) iştirak etmək hüquqlarına malikdirlər. Ancaq qanuna görə, hərbi qulluqçular siyasi məqsədlər güdən siyasi partiyaların və kütləvi ictimai təşkilatların üzvü ola bilməzlər.

Dövlət sirrini və hərbi sirri açmamaq şərtilə hərbi qulluqçuların söz və mətbuat azadlığına, əqidə azadlığına, öz əqidəsini sərbəst ifadə etməsinə, 8-ci maddədə isə hərbi qulluqçuların şəxsi toxunulmazlığına təminat verilir. Hərbi qulluqçular yalnız məhkəmənin qərarına əsasən, habelə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nizamnamələrinin tələblərinə uyğun olaraq hərbi hissə komandiri (rəisi) tərəfindən intizam qaydasında həbs edilə bilərlər.

Qanunun 9-cu maddəsi ilə hərbi qulluqçuların əmək hüququ müəyyən edilir. Bu maddəyə əsasən, vətəndaşların həqiqi hərbi xidmət keçdiyi dövr onların ümumi əmək stajına daxil edilir. Hərbi qulluqçuların elmi, texniki, bədii və başqa yaradıcılıq azadlığına təminat verilir, bir şərtlə ki, bu, onların hərbi xidmət vəzifələrinin icrasına mane olmasın.

Hərbi xidmətdən buraxılarkən hərbi qulluqçuların təhsili və ixtisası nəzərə alınmaqla işə düzəlməsinə təminat verilir. Hərbi xidmətdən buraxılmış hərbi qulluqçulara maddi yardım göstərilməsi və onların məişət şəraitinin təmin edilməsi üçün yerli icra hakimiyyəti başçıları müəssisələrin, idarələrin, təşkilatların könüllü surətdə ayırdıqları vəsait hesabına hərbi qulluqçuların sosial müdafiəsi fondunu yarada bilərlər.

Müddətli hərbi xidmətə çağırılanadək işləmiş şəxslərin həmin müəssisədə, idarədə, təşkilatda əvvəlki vəzifəyə və ya buna bərabər işə girmək hüququ saxlanılır.

Hərbi qulluqçuların pul təminatı və maddi təminat hüquqları var. Qanunun 10-cu maddəsində göstərilir ki, hərbi xidmətin şəraitindən, ixtisasından, hərbi peşədən, hərbi rütbədən və hərbi xidmətdə olmağın müddətindən asılı olaraq hərbi qulluqçuların dövlət hesabına təminat xərcliyi almaq hüququ vardır.

Hərbi qulluqçular Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normalar üzrə dövlət hesabına ərzaq və əşya əmlakı almaq, ərzaq və ya əşya əmlakı üçün pul kompensasiyası almaq hüququna malikdirlər.

### *Hərbi qulluqçuların təklif, ərizə və şikayət vermə hüquqları*

"Hərbi qulluqçuların statusu haqqında" qanunun 22-ci maddəsinə görə, hərbi qulluqçuların dövlət orqanlarına təklif göndərmək, ərizələr vermək, habelə vəzifəli şəxslərin, dövlət orqanlarının, vətəndaşların (o cümlədən hərbi qulluqçuların) hüquqa zidd hərəkətləri barəsində müəyyən edilmiş qaydada şikayət etmək hüquqları var.

Təminat xərcliyinin verilməməsi, hərbi qulluqçular barəsində komandirlərin (rəislərin) və ya başqa hərbi qulluqçuların qanunsuz xidməti sərəncamları (hərəkətləri) barəsində, hərbi xidmət münasibətlərinin başqa məsələləri barəsində şikayətlər Silahlı Qüvvələrin nizamnamələrində nəzərdə tutulmuş qaydada verilir, nəzərdən keçirilir və həll edilir.

Hərbi qulluqçular vəzifəli şəxslərin və hərbi idarəetmə orqanlarının nizamnamə münasibətləri çərçivəsindən kənara çıxan və hərbi qulluqçuların hüquqlarını və şəxsi ləyaqətini tapdalayan hüquqa zidd hərəkətləri barəsində məhkəməyə şikayət edə bilərlər.

Şikayət verilməsinə mane olmaq və buna görə şikayət verəni cəzalandırmaq və ya təqib etmək qadağandır. Bunda təqsirli olanlar Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyətə cəlb edilirlər.

Azərbaycan Respublikasının "Vətəndaşların müraciətlərinə baxılması haqqında" 10 iyun 1997-ci il tarixli qanununun 4-cü maddəsində göstərilir ki, hərbi qulluqçuların xidmətlə əlaqədar müraciətlərinə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət və İntizam nizamnamələrinə uyğun olaraq baxılır.

Daxili Xidmət Nizamnaməsinin 5-ci maddəsinə görə, hərbi qulluqçu xidmət məsələlərinə dair özünün bilavasitə rəisinə və ancaq onun icazəsi ilə komanda üzrə daha böyük rəisə müraciət edə bilər. Hərbi qulluqçu şəxsi məsələlər üzrə, bir qayda olaraq, özünün bilavasitə rəisinə, müstəsna hallarda isə böyük rəisə müraciət edir. Hərbi qulluqçu təklif, ərizə və şikayət verdikdə İntizam Nizamnaməsinin müddəalarını rəhbər tutmalıdır.

### *Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası*

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası qanununun 27-ci maddəsi ilə hərbi qulluqçuların dövlət tərəfindən məcburi şəxsi sığortalanması nəzərdə tutulub. Qanun müəyyən edir ki, hərbi xidmət vəzifəsinin icrası dövründə həlak olmaq (vəfat etmək), xəsarət almaq (yaralanmaq, kontuziya almaq), səhhəti korlanmaq, hərbi xidmət keçmə ilə bağlı bədbəxt hadisələr və ya xəstəliklər ehtimalına qarşı hərbi qulluqçular hərbi xidmətə daxil olduqları andan dövlət tərəfindən məcburi sığortalanırlar. Hərbi xidmət keçərkən əmək qabiliyyətini itirmiş şəxslərin sosial təminatına dövlət zəmanət verir.

Sığortalanmanın qaydası, şərtləri və sığorta ödənişlərinin məbləği Azərbaycan Respublikasının "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" 25 iyul 1997-ci il tarixli qanunu ilə tənzimlənir. Bu qanun hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə onların həyatının və səhhətinin dövlət icbari şəxsi sığortası qaydalarını və şərtlərini müəyyən edir. Hərbi qulluqçuların sığortası dövlət sığorta orqanları tərəfindən həyata keçirilir.

Sığorta hadisələri baş verdikdə sığorta məbləğindən faizlə aşağıdakı sığorta ödənişləri verilir:

Sığorta edilən xidmətdə (toplanışda) olduğu zaman:

- həlak olduqda (vəfat etdikdə) - 100 faiz;
- yaralanma (kontuziya alma) xəstələnməsi nəticəsində xidmətdən (toplanışdan) buraxıldıqdan sonra 3 il müddətində öldükdə - 100 faiz;
- itkin düşdükdə - 100 faiz;
- xidməti vəzifəsini yerinə yetirməsi ilə əlaqədar olaraq sığorta edilən xidmətdən (toplanışdan) buraxıldığı gündən 3 il müddətinədək əlillik təyin edildikdə:

a) I qrup - 80 faiz;
b) II qrup - 60 faiz;
c) III qrup - 40 faiz;

- ağır yaralandıqda, yaxud səhhəti pozulduğuna görə xidməti vəzifəsini yerinə yetirməyə yararsız hesab edildikdə - 25 faiz;
- yüngül xəsarət (yaralanma, travma, kontuziya) aldıqda - 5 faiz.

Qanunun 8-ci maddəsində deyilir: "Sığorta edilənə və ya onun vərəsələrinə sığorta məbləğinin verilməsindən aşağıdakı hallarda imtina edilir: Sığorta edilənin sığorta hadisəsi ilə birbaşa bağlı olan qəsdən cinayət törətdiyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, yaxud sığorta edilən sərxoş vəziyyətdə hərəkət etdikdə".

*Qrup rəhbəri mövzunu şərh edərkən Azərbaycan Respublikasında hərbi qulluqçuların və onların ailə üzvlərinin sosial-hüquqi müdafiəsinin dövlət rəhbərliyinin daim diqqət mərkəzində olmasını dinləyicilərin nəzərinə çatdırmalıdır.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Silahlı Qüvvələr veteranı adını qazanan bir qrup zabit Naxçıvanda Heydər Əliyev Muzeyini ziyarət edib

*İyirmi beş il ordu sıralarında xidmət edən və Silahlı Qüvvələr veteranı adını qazanan bir qrup zabit Naxçıvanda Heydər Əliyev Muzeyində olub.*



Ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə tər gül dəstələri qoyan zabitlər Heydər Əliyev Muzeyinə gəliblər. Burada bildirilib ki, ümummilli lider Heydər Əliyev 1999-cu il oktyabrın 13-də muxtar respublikaya səfəri zamanı muzeyə gələrək buradakı ekspozisiya ilə tanış olub. Ulu Öndərin muzeyi ziyarəti zamanı çəkilmiş tarixi fotolar burada nümayiş etdirilir. Muzeydə zəngin fond materialları, orijinal sənədlər və eksponatlarla dahi rəhbərin mənalı həyatı, xalqımızın rifahı, xoş gələcəyi naminə siyasi fəaliyyətinin ayrı-ayrı dövrləri, mərhələləri işıqlandırılıb.

Sonra zabitlər Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman Vətən övladlarının məzarlarını ziyarət ediblər.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

Ovqat

# Vətən üçün döyüşmək şərəfdir

Hər şey Fernando Magellanın dünya səyahətindən sonra başladı. Artıq yerin kürə şəklində olması sirr deyildi. Dünyanın bu forması həm də baş verən hadisələrin hər yerdə təkrarlandığına dəlalət edirdi. Müharibələr, qırğınlar və talanlar bütün dünyanı əhatə edən hadisə və proseslərdir. İstəsək də, istəməsək də dünyanın istənilən ölkəsində bu və ya digər formada kiçik və böyük münaqişələr mütləq baş verməkdədir. Müharibə isə qarşısı çətin alına bilən xəstəlik kimidir.

"Müharibənin rəngi hansıdır?", - deyə öz-özümə sual etdim. Bu rəng qara və qırmızıdır. Ancaq aradan incə bir cizgi - yaşıl keçir. Qara rəng, solan, yox olan ümidlərin xəbərçisidir. Qırmızı rəng al qan və boynu bükük Qərənfil qızların nişanıdır. Yaşıl rəng isə yenidən dirçələn ümidlərin, istəklərin, inamın, gələcəyin simvoludur.

Tarix boyu müharibələrin əsas qəhrəmanları əsgərlər olublar. Müharibələr əsasən əsgərlərin çiyinində olub. Bu mənada əsgərləri fərqləndirmək olmur. Ancaq heç bir azərbaycanlı, türk Vətən üçün savaşmaqdan yorulmayıb, ölümdən qorxmayıb. Eynən Aprel döyüşlərində qəhrəman oğullarımızın göstərdikləri rəşadət kimi.

And içmişdik ki, müqəddəs savaşda bir ölsək də, min diriləcəyik. Yaxşı bilirik ki, qan tökmək günahdır. Ancaq andına sadiqdi Azərbaycan əsgəri. Dövlət üçün bayraq, himn və gerb nə qədər əhəmiyyətlidirsə, əsgər, Sən də bu dövlət üçün bir o qədər əhəmiyyətlisən. Nümunəvi xidmətinlə bu ada yüksəlməyə çalışırsan. Heç bir kənar qüvvə, hadisə sənin mənəvi ruh düşkünlüyünə səbəb ola bilməz. Çünki sən qələbənin asan qazanılmayacağını çox yaxşı dərk edirsən. Anlayırsan ki, yolçusu olduğun bu yolda ölüm, itim, ayrılıq var. Ən əsası isə Vətən var, torpaq var. Sən bu yolda torpaq olmağı belə gözə almısan. Belə xidmətə isə yalnız əhsən demək düşür!..

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun III kurs tələbəsi**

Hərbi texnikalar, silahlar

# Tor-M2E zenit-raket kompleksi



Rusiya istehsalı olan "Tor-M2E" zenit-raket kompleksi hərbi əməliyyatlar zamanı quru qoşun bölmələrinin cəmləşmə rayonunun hava hücumundan müdafiə olunması, komanda məntəqələrinin, rabitə xətlərinin, radiotexniki vasitələrin, körpülərin, aerodromların və s. vasitələrin idarə olunan raketlərdən, aviasiya bombalarından, təyyarələrdən, helikopterlərdən, pilotsuz uçuş aparatlarından və digər yüksək dəqiqliyə malik silah elementlərindən qorunmaq üçün nəzərdə tutulub. Kompleks özündə məşhur 9K331 "Tor-M1" zenit-raket kompleksinin sonrakı inkişafını təsvir edir. Öz sələfindən fərqli olaraq "Tor-M2E" radioelektron qarşıdurmada və intensiv atəş şəraitində müasir hava vasitələrinin kütləvi şəkildə hücumlarının qarşısını alması ilə fərqlənir.

"Tor-M2E" zenit-raket kompleksi Elmi Tədqiqat Elektromaqnit İnstitutu tərəfindən hazırlanır və İjev elektromaqnit "Kupol" zavodu tərəfindən istehsal olunur.

Zenit-raket kompleksinin döyüş tərkibinə təkərli şassidə 9A331MK və ya tırtıllı şassidə 9A331MU döyüş maşınları, dörd zenit raketli idarəolunan 9M334 zenit raket modulu, nəqliyyat maşını, nəqliyyat-təchizat maşını, iki texniki xidmət (batareya və alay) cihazlandırma komplekti, döyüş maşınlarının trenajor operatorları, texniki xidmət vasitələri daxildir. Bu döyüş maşınları lazımi ərazi sektorunda dairəvi olaraq görüntüləri təmin edir, hava hədəflərini aşkar edir, hava ərazisindəki vəziyyəti analiz edir, avtomatik olaraq təhlükəli hədəflərə atəş açmaq, onları ələ keçirmək üçün seçim edir. Komanda üzrə hədəfə qarşı raketlərin buraxılmasını və tuşlanmasını təyin edir. "Tor-M2E" müasir antena ilə təchiz olunub. Kompleksdə quraşdırılan yeni hesablayıcı sistemi informasiyaların işlənmə imkanını daha da yaxşılaşdırır. Burada bütün gün ərzində işləyən optik-elektron aşkaretmə



sistemi də quraşdırılıb. Bütün əməliyyatları döyüş maşınları hərəkət edərkən yerinə yetirir.

"Tor"un maksimal məhvetmə uzaqlığı 12 (9M331D üçün 15) kilometr, 10 metr minimal hündürlükdə 1500, 100 metrdən çox hündürlükdə isə 1000 metrdən çox təşkil edir. Eyni vaxtda vurulan hədəflərin sayı 4, eyni vaxtda tuşlanan raketlərin sayı 8 ədəddir. Raketlərin maksimal hərəkət sürəti saniyədə 700 metr təşkil edir. Döyüş maşını 18 dəqiqə ərzində təchiz olunur. Döyüş maşını səyyar vəziyyətdən döyüş vəziyyətinə üç dəqiqə ərzində gətirilir. Döyüş maşınının hərəkət sürəti şosse yolda 80, torpaq yolda isə 30 kilometrə qədərdir. Yanacaq üzrə ehtiyat hərəkəti 500 kilometr, maksimal çəkisi 30 ton, döyüş maşınının heyəti isə üç nəfərdən ibarətdir. Mənfi-müsbət 50 dərəcə temperaturda işləməyə qadirdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Ermənistanın dezinformasiya siyasəti davam edir

Son bir neçə gündür Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş torpaqlarında genişmiqyaslı hərbi təlimlər keçirilir. Ermənistan tərəfinin belə bir addımı Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində əldə edilən razılaşmaların məhvinə və danışıqların yubadılmasına gətirib çıxarır. Bu, həmçinin Ermənistan tərəfinin münaqişənin sülh yolu ilə həllinə dair səsləndirdikləri bəyanatların da əsassız olduğunu bir daha göstərir. Erməni tərəfi əsl niyyətini "sülh" adı altında pərdələməyə, öz işğalçılıq siyasətini davam etdirərək status-kvonu qoruyub saxlamağa və danışıqlar prosesini uzatmağa çalışır. ATƏT-in Minsk Qrupunun təşəbbüsü ilə Nyu-Yorkda hər iki ölkənin Xarici İşlər nazirlərinin görüşlərinin təşkil edildiyi bir vaxtda Ermənistan tərəfinin Azərbaycan torpaqlarında genişmiqyaslı hərbi təlimlərə başlaması vasitəçilərin Qarabağ münaqişəsinin həlli istiqamətindəki fəaliyyətlərinə kölgə salır.

Qarabağ münaqişəsinin həllində vasitəçi rolu oynayan ATƏT-in Minsk Qrupu bu məsələyə dair öz səssizliyini pozmalı və Ermənistan tərəfini qəti şəkildə qınayaraq danışıqlar prosesinə zərbə vurduqlarını bildirməlidir.

Bu günlərdə erməni KİV-də Ermənistanın Müdafiə naziri Davit Tonoyan və Müdafiə Nazirliyinin mətbuat sözçüsü Artsrun Hovhannisyan tərəfindən səsləndirilən fikirlər özü-özlüyündə ziddiyyətlər təşkil edir. Əvvəla, işğalçı ölkənin Müdafiə naziri D.Tonoyan açıqlamalarında "düşmən tərəfinin" diversiya qrupunun sayının 10-dan çox olması və onların cəhdlərinin video kameralarla qeydə alındığını bildirir. Daha sonra D.Tonoyan jurnalistlərlə müsahibəsi zamanı Azərbaycan tərəfinin niyə belə "təxribat" cəhdinə əl atdığını, hadisənin vaxtını dəqiq deyə bilməyəcəyini, onların azmış ola biləcəklərini qeyd etdi. Buradan belə bir qənaətə gələ bilərik ki, D.Tonoyan hadisə ilə bağlı dəqiq məlumata sahib deyil.

Əvvəla, Ermənistan tərəfi, həqiqətən, "kəşfiyyat-diversiya qrup"nun fəaliyyətini video kameralarla qeydə alıbsa, çoxdan bu görüntüləri ictimaiyyətə təqdim etməklə dünyaya özünü yazıq və Azərbaycan tərəfini günahkar qismində göstərmiş olardı. Deməli, işğalçı ölkənin Müdafiə nazirinin qeyd etdiyi kimi, ermənilər Azərbaycan tərəfinin "təxribat" cəhdləri etməsinə dair görüntülərə sahib deyil. Buradan da aydın olur ki, bu fakt yalandır. Eyni zamanda, 16:15 radələrində "kəşfiyyat-diversiya" fəaliyyətini yerinə yetirməsi faktı da reallığı əks etdirmir. Bir məqamı da diqqətə çatdıraq ki, dünya praktikasında kəşfiyyat-diversiya tədbirləri axşam vaxtlarında və yaxud kəskin hava şəraiti mövcud olduqda planlaşdırılır və həyata keçirilir.

Nəticə etibarı ilə Ermənistanın Müdafiə naziri Davit Tonoyanın verdiyi açıqlamalar heç bir fakta əsaslanmır. Sadəcə daxili auditoriyaya hesablanmış açıqlamadır. Ələlxüsus, son zamanlar D.Tonoyanın da istefaya göndəriləbiləcəyinə dair xəbərlərin yayıldığı bir vaxtda belə açıqlamalarla çıxış etməsi kreslosunu itirmək qorxusundan irəli gəlir.

Təbii olaraq, belə təlimlərin keçirildiyi bir vaxtda Ermənistan tərəfi dezinformasiya xarakterli məlumatlar yaymaqda davam edir. Ermənistan tərəfi iddia edir ki, silahlı qüvvələri tərəfindən guya Azərbaycana məxsus PUA vurulub. Bu xəbərdən bir neçə gün öncə də Azərbaycan kəşfiyyat-diversiya qrupunun təxribata cəhd etdiyinə dair xəbərlər də yayılmışdı. Azərbaycan tərəfinin dərhal hər iki məlumata reaksiya verməsi açıq-aşkar sübut edir ki, bütün bunlar dezinformasiya və əsassız iddialardan başqa bir şey deyil. Fikrimcə, hərbi təlimlər bitənə qədər Ermənistan tərəfi bu tipli dezinformasiya xarakterli xəbərlər yaymaqda davam edəcəkdir.

**Ehtiram AŞIRLI,**
**analitik**

## Bayraq - Vətən bayrağı

Döyüş əzmi qoruyur,
Zəfər ruhu qoruyur
Səngərlərdən torpağı,
Torpaq - Vətən torpağı.

Səngərin o üzünə
Səngər qətiyyətindən
Bir öyüd içib gedər,
Yolları kürmələyib
Bir ağ yol seçib gedər,
Soraq - Vətən sorağı!

Bir haray sığal çəkir
Göylərin göy üzünə.
Bu haray aparacaq
Bizi Cıdır düzünə,
Bayraq - Vətən Bayrağı!..

## Əsgər andı

Azərbaycan -
Ana Vətən deyənlərin,
Bir ömürü
Bu ada tən
Deyənlərin
Yerə-göyə sığışmayan
Məhəbbəti -
əsgər andı.
Məmləkətə
Qazan xan,
Qaraca çoban,
Bamsı Beyrək,
Bəkil,
Qanturalı,...
Sədaqəti - əsgər andı.
Ləçəkdə - şeh,
Budaqda - meh,
Göy üzünün göy qurşağı -
Qövsi-qüzeh -
əsgər andı.
Cavanşirlik,
Xətailik qətiyyəti -
əsgər andı.
Azıxın,
Qobustanın
Min illərin o üzündən
Gələn səsi,
Lələtəpə,
Bayraqtəpə qələbəsi - əsgər andı!..

## Səngərdə dan yeri belə sökülür

Kirpik-kirpik sökülür
Səngərlərdə dan yeri.
Əsgərin yerişidi
Səhərin yuxusundan
qəfil oyadan yeri.
Əsgər baxışlarıyla
Sığallanır dağ-dərə.
Bu baxışın gözçəkən
mehrinə ortaq dərə.

Qaya dinir, daş dinir,
Sınıxan təlaş dinir,
Min illərə sığmayan
Ömür dinir, yaş dinir:
Elə istəyirik ki,
Göylərin sevincini
Biz görək,
Bayraq dərə!..

Yellərin ağ qanadı
Qayalara toxunur.
Əsgər baxışlarından
bir mətləb də oxunur:
Şuşa,
Cıdır düzü,
İsa bulağı, ...
Hələ yol gözləyir qulağı səsdə.
Səngər müvəqqəti dayanacaqdı,
Böyük Qələbənin yolları üstə!..

## Səngərdə yollar gördüm

Bu yana gələnlərin
Həsrətini içir yol.
Baxır...
Ağı qaradan
İrdələyib seçir yol.

Yolçuların tərini
Qurtum-qurtum içir yol.
Ayaqlardan yapışıb
ürəklərə köçür yol.
Göylər sınağa çəkir
Səngərdə bitən yolu.
"Quru yuyub yaş sərir"
Yağışlar hərdən yolu.

Dan yeri sökülərdən
Söz qılığa tutanmır
Bilmirəm nədən yolu
"Ruhani" uğurlayır
Səngərdən gedən yolu.

Yolların sağ solunda
Yarpaq əsdirən külək,
Könüllərdən xəbərsiz.
Könül küsdürən külək.

Yeri göyə dikəldən
İnamın üstə əsmə!
Mən də söz çiçəyindən
tutaram dəstə, əsmə.

O yolun qənşərinə
dizin-dizin sürün get!
Onda ləşkər keçəcək...
Toz-dumana bürün get!
Gündüz - Günəş,
gecələr
ulduz kimi görün, get!

Ya dayan sıramızda,
Ya sıradan üzül, get.
Xoşbəxtliyin sapına
mirvaritək düzül get.

"Böyük Qələbə!", - deyir,
Hər səda, hər səs, külək.
Vaxtıdı...
Əsgərlərin
Dayandığı səngərin
O üzünə əs, külək!..

*Könlüm şeir istəyir*

# Səngər - yazı masası...

*Əməkdar jurnalist, ehtiyatda olan mayor Rəşid Hüseynov həm də şairdir.*

*Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində mahiyyəti vətənpərvərlik olan tədbirlər sırasında şairlərlə görüşlər, şeir saatları da əhəmiyyətli olur. Şairlər səngərlərdə əsgərlərlə Ali Baş Komandanın döyüş əmriylə torpaqlarımızın işğaldan azad edilməsiylə nəticələnəcək döyüşlərdən danışır, poeziyadan, şeirdən, şeiriyyətdən mükaliməlәşirlər, şeirlər oxuyurlar.*

*Ezamiyyətdə olanda əsgərlər şair Rəşid Hüseynovdan şeir istəyiblər. Həm də səngərdə yazılmış şeirlər. Səngər şairin yazı masası olub, publisistik məqalələrində dediklərinin bəzi məqamlarını şeirləşdirib...*

**"Azərbaycan Ordusu"**

## Salam, əsgər qardaşım

Salam, əsgər qardaşım!
Neçə illərdən bəri
sənin ayaq səsindən,
Gölün-düzün buzunu
əridən nəfəsindən
Oyanıb zirvələrdə
qar cücərdən qar daşım,
Mənim əsgər qardaşım!

Göylər sənə baxır ki,
Dan yeri sökülüncə
yerişini,
duruşunu,
baxışını
gözlərinə köçürə.
Dönməz qətiyyətini,
Qoruduğun torpağa
böyük məhəbbətini,
Azərbaycan adında
müqəddəslik tacına
sonsuz sədaqətini
köynəyindən keçirə.
Bu yay günü Göy Yerin,
Yer Göyün qılıqçısı,
Əsən yel - Yerin, Göyün
ərköyün qılıqçısı
əlini sıxıb sənə
"Vətənə sevgin üçün
Qollarını gər!", - deyir,
"Baxışlarına hopan
o qəzəbi,
o kini,
o nifrəti
səngərin
o üzünə sər!", - deyir...
Mənim əsgər qardaşım!

İndi məmləkət boyu
Daş da,
dağ da deyir ki,
Axar su da deyir ki,
Gur bulaq da deyir ki,
Orda - Lələtəpədə,
Orda - Bayraqtəpədə,
Naxçıvanda - Günnütdə
Qürurla dalğalanan
Canım bayraq deyir ki,
"Qəhrəmanlıq sorağın
Düşüb hər kəndə, əsgər!
Dayandığın səngəri
köçür sərhəddə, əsgər!"...

## Olacağıq

Həsrəti biryolluq itirmək üçün,
Daş üstə çiçəklər bitirmək üçün,
Sizi qələbəyə yetirmək üçün
Cığır olacağıq, iz olacağıq.

Yay olsa, bir sərin bulaqdan ötrü,
Yaz olsa, gül açan budaqdan ötrü,
Qış olsa, yanası ocaqdan ötrü
Özün arzulayan köz olacağıq.

Qıymarıq bir daş da qəddini əyə,
Qoymarıq daşları yad kürmələyə.
Dünənki tarixi yaşadır deyə,
Qollarını gərən Bəzz olacağıq.

Görsək ki, çiçəklər solur, saralır,
Görsək ki, göy üzü azca qaralır,
Görsək ki, dağların səbri daralır,
Ərənlər əlində gürz olacağıq.

Tarix üyüşəcək, dursa da qəsdə,
Ümid harayı var hər gələn səsdə.
Böyük Qələbənin yolları üstə
Uğur diləyənin biz olacağıq...

## Qələbəylə gələcək...

Tərifin sığan deyil
sözə dan yeri, qardaş.
Gəlişin şeir oldu
bizə dan yeri, qardaş.

Sönən deyil bu ocaq,
Közü saçaqlayacaq...
Həsrəti bizdən qabaq
üzə dan yeri, qardaş.

Çiçəklər ləçək-ləçək,
Ləçəkdən şəbnəm içək...
Qələbəylə gələcək
Təzə dan yeri, qardaş!..

# İdman

## Milli Qəhrəman Tahir Həsənovun xatirəsinə həsr olunmuş taekvondo üzrə açıq turnir başa çatıb



Şağanda Bakı şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ), Xəzər rayon Gənclər və İdman İdarəsi, Azərbaycan Taekvondo Federasiyası və Azərbaycan Məktəb İdmanları Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən Milli Qəhrəman Tahir Həsənovun xatirəsinə həsr olunmuş məktəblilər arasında taekvondo üzrə açıq turnir başa çatıb.

İki gün davam edən yarışda rəsmi açılış mərasimi keçirilib.

Tədbirdə fəxri qonaq qismində Baş İdarənin sektor müdiri Samir Salehov, eləcə də rayon Gənclər və İdman idarəsinin rəisi Vüqar Əliyev, Azərbaycan İdman Könüllüləri Təşkilatının sədri Miraqil Seyidzadə, Şağan Olimpiya İdman Kompleksinin direktoru Atakişi Cahanov və Milli Qəhrəmanın döyüş yoldaşları onun Qarabağ döyüşlərindəki şücaətindən və düşmənə qarşı göstərdiyi qəhrəmanlıqdan danışıblar.

Azərbaycan Taekvondo Federasiyasına üzvü olan Bakı və respublikanın regionlarında fəaliyyət göstərən idman cəmiyyətləri və klublarından, eləcə də İran və Gürcüstandan ümumilikdə 360-dək idmançının mübarizə apardığı 2002-2011-ci il təvəllüdlü məktəblilərin yarışında ilk pillənin sahibi "Təhsil-Sumqayıt" komandası sahib olub.

İkinci pilləyə RUGİM, üçüncü yerə isə İran komandası çıxıb.

Yarışda ilk üç yeri tutan idmançılar təşkilatçılar tərəfindən müvafiq dərəcəli diplom, kubok və medalla təltif olunublar.

## Azərbaycanlı cüdoçu dünya çempionatında gümüş medal qazanıb



Azərbaycan cüdoçusu Kamran Süleymanov (60 kq) Qazaxıstanın Almatı şəhərində keçirilən dünya çempionatında gümüş medala sahib olub.

Mübarizəyə otuzikidəbir finaldan başlayan idmançımız əvvəlcə braziliyalı Felipe Limanı məğlub edib. Növbəti mərhələdə ukraynalı Vladislav Kazimirovu üstələyən cüdoçumuz səkkizdəbir finalda ermənistanlı Styopa Darbinyanı məğlubiyyətə uğradıb. Dörddəbir finalda Qazaxıstan təmsilçisi Marlen Adilə qalib gələn K.Süleymanov yarımfinala vəsiqə qazanıb. Bu mərhələdə onun rəqibi qırğızıstanlı Çingizxan Saqinaliyev olub. Cüdoçumuz rəqibini ipponla məğlub edərək finala yüksəlib. Lakin finalda yaponiyalı Keiji Tsujioka ilə bacarmayan cüdoçumuz gümüş medalla kifayətlənməli olub.

## Qılıncoynadanımız Zərifə Hüseynova Moskvada üçüncü yeri tutub



Azərbaycan qılıncoynadanları Moskvada təlim-məşq toplanışındadır.

İkiqat Olimpiya çempionu İlqar Məmmədov adına Qılıncoynatma Mərkəzində Maqsud Hüseynli, Saleh Məmmədov, Murad Əkbərov və Zərifə Hüseynova Rusiyanın yeniyetmələrdən ibarət komandası ilə birgə hazırlıq keçirlər.

Təlim-məşq toplanışı çərçivəsində yeniyetmə sablyaçımız Zərifə Hüseynova Qılıncoynatma Mərkəzində 2006-cı il təvəllüdlü sablyaçılar arasında açıq turnirə qatılıb. Təmsilçimiz 19 idmançı arasında 3-cü yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

Baş gizir Bayramov Ramiq İmanqulu oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Günay TAĞIYEVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 597
Nüsxə 3950